# FugaBlesk®

**ZƏR EFFEKTLİ ARALIQ DOLDURMA QARIŞIĞI**

*Epoksid əsaslı*




## Məhsul haqqında

Qızıl, gümüş və mis metalların rəng effektini verən zərlərin sayəsində parlaq (işıltılı) görüntü yaratması ilə istifadə olunduğu məkanları daha da cəlbedici göstərən, dekorativ, gigiyenik və asan təmizlənə bilən aralıq doldurma məhsuludur.

AZS 321-2008 (TSEN 13888) standartına uyğundur.

## İstifadə sahələri

Bu aralıq doldurma qarışığından:

- daxili və xarici məkanlarda şaquli səthlərə vurulmuş qranit, keramika, mozaika və digər bu kimi inşaat materiallarının aralıqlarının doldurulmasında;
- daxili və xarici məkanlarda üfüqi səthlərə döşənmiş keramika, qranit, mozaika, süni plitələrin və digər bu kimi inşaat materiallarının aralıqlarının doldurulmasında istifadə olunur.

## Üstünlükləri

- çirklənmir;
- gigiyenik cəhətdən təmizdir;
- asan silinə bilir;
- rəng dalğalanması yaratmır;
- zər qatqısı ilə dekorativ və əvəzolunmaz görüntü yaradır;
- çatlamaya, aşınmaya qarşı dayanıqlı olub uzun ömürlüdür;
- sement əsaslı aralıq doldurma qarışığına nisbətən daha çox cəlbedicidir;
- $25^0C$-də 50 dəqiqə ərzində istifadə oluna bilər.

## İstifadə qaydaları

***Səthin hazırlanması.*** Məhsulun istifadə olunacağı səth quru və səthdəki nəmlik 5 %-dən çox olmamalıdır. Aralıqlar toz, çirk və inşaat qalıqlarından təmizlənməli, ən azı 2/3 hissəsi boş olmalıdır. Zər effektini daha aydın görmək üçün aralığın eninin ən azı 3 mm olması tövsiyə olunur. Aşağı temperaturlarda məhsulda yüksək qatılıq müşahidə oluna bilər. Buna görə məhsul istifadədən əvvəl otaq temperaturunda ($+23^0C\pm3^0C$) 1 (bir) gün saxlanılmalıdır. İstifadəyə başlamazdan əvvəl əlcək geyilməli və mütləq gözlük taxılmalıdır.

***Qarışığın hazırlanması.*** Qarışığı hazırlayarkən komponentlərin yerləşdirildiyi qabdan A, B ,C və D komponentlərini çıxarıb kənara qoyun, sonra həmin qabın içərisinə sıra ilə A, B və D komponentlərini axıradək boşaldın və homogen bir qarışıq əldə edilənə qədər aşağı dövriyyəli bir qarışdırıcı ilə qarışdırın. D komponenti yüngül və uçucu olduğundan qarışdırarkən diqqətli olun. Parıltısız görünüş əldə etmək üçün D komponentini əlavə etmədən qarışıq hazırlana bilər. Daha sonra bu qarışığın üzərinə C komponentini əlavə edin və eyni şəkildə homogen bir qarışıq əldə edənədək qarışdırın.

***Tətbiqi.*** Hazırlanan qarışığı istifadə olunacaq səthin üzərinə töküb elastiki malanın köməyi ilə yayaraq çarpaz hərəkətlərlə aralıqlara doldurun. Səthdə qalan qalıqları elastiki mala ilə sıyırın. FugaBlesk istifadə olunduqdan 15 dəqiqə sonra ilıq su ilə nəmləndirilmiş süngəri aralıq və səth üzərində yüngül dairəvi hərəkətlərlə gəzdirərək qalıqlardan təmizləyin. 24 saatdan sonra səthdə qalan qalıqlar nəmləndirilmiş bir bez ilə ovulmaqla təmizlənməlidir. Səth tam təmizlənmədikdə sirkəli su və ya aseton ilə ovulma işi təkrar olunmalıdır.

***Tövsiyələr.*** İstifadə təlimatında göstərilməyən hər hansı əlavə qatqı qatmayın. Əldə edilən qarışığın istifadə müddəti $+25^0C$-də 50 dəqiqədir. Səthin və havanın temperaturu istifadə müddətinə təsir edə bilər. Yüksək temperaturda istifadə müddəti qısaldığı halda, aşağı temperaturda istifadə müddəti uzanacaqdır. İstifadə müddəti bitmiş qarışıq istifadə olunmamalıdır.

## Texniki göstəricilər

| | |
|---|---|
| **Rəngi:**<br>• *komponent A*<br>• *komponent B*<br>• *komponent C*<br>• *komponent D* | <br>açıq sarı rəngli şəffaf maye<br>açıq sarı rəngli şəffaf maye<br>qara, boz, bej, qəhvəyi, mavi rəngli toz<br>gümüş, qızıl, mis effektli zər |
| **Sıxlığı** | 1,53 kq/litr |
| **İstifadə temperaturu** | $+10^0C$ – $+25^0$ C |
| **İstifadə müddəti, $25^0C$-də** | 50 dəqiqə |
| **Son bərkiməsi** | 5 saatdan sonra |
| **Üzərində hərəkət etmə müddəti** | 24 saatdan sonra |
| **Möhkəmlik həddi:**<br>• *əyilmədə*<br>• *sıxılmada* | <br>≥ 30 $N/mm^2$<br>≥ 45 $N/mm^2$ |
| **Su hopması 240 dəqiqədən sonra** | ≤ 0.1 qr |
| **Temperatura dayanıqlığı** | ($-30^0C$) – ($+80^0C$) |
| **Qablaşdırma (dəst halında):**<br>• *komponent A*<br>• *komponent B*<br>• *komponent C*<br>• *komponent D* | <br>0,456 kq-lıq plastik qablarda<br>0,246 kq- lıq plastik qablarda<br>1,7 kq-lıq polietilen kisələrdə<br>0,1 kq- lıq plastik qablarda |

## Sərfiyyat

FugaBlesk məhsulunun sərfiyyatı aralıqların enindən və dərinliyindən asılı olaraq 0,6-2 $kq/m^2$-dir.

## Saxlama müddəti və qaydası

Açılmamış orijinal qablarda, quru şəraitdə $+5^0$-$+35^0C$ arası temperaturda 12 ay saxlanıla bilər.

## Xəbərdarlıqlar

- istifadə zamanı mütləq əlcək və eynəkdən istifadə edin;
- məhsulun qatqılarla zəngin olduğunu nəzərə alaraq dəriyə və ya gözə düşdükdə dərhal su ilə yuyun;
- istifadə qaydalarında qeyd edilməyən heç bir əlavə maddə qatmayın;
- açıq rəngli məhsullar xarici məkanlarda ultrabənövşəyi şualara məruz qaldıqda rənglər tündləşə bilər;
- güclü təmizləyicilərlə təmizləmə işi

aparıldıqda zərlərin rəngi solduğundan FugaBlesk təmizlənərkən pH-ı neytral olan təmizləyicilərdən (sabun-su qarışığı) istifadə edin;

• yuxarıdakı göstəricilər $+23^0C \pm 2^0C$ temperatur və 50%±5% rütubətli şəraitdə aparılan laboratoriya sınaqları nəticəsində əldə olunmuşdur. Şəraitdən asılı olaraq bu göstəricilər dəyişə bilər.

**Zəmanət və texniki dəstək**

• texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;

• "Mətanət A" şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir;

• şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə zamanı yarana biləcək problemlərə görə "Mətanət A" şirkəti məsuliyyət daşımır;

• şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;

• texniki dəstək və ya daha geniş məlumat almaq üçün "Mətanət A" şirkətinə müraciət edin!

# AĞDAĞ® FugaPlaster®




## ARALIQ DOLDURMA QARIŞIĞI

*Gips lövhələri üçün*

**Məhsul haqqında**

Materialın keyfiyyətini, istifadə imkanlarını, çatlamaya qarşı müqavimətini, səthin hamarlığını və elastikliyini artıran qatqılarla zəngin gips əsaslı qarışıqdır. AZS 046 (TS 370), DİN 18180 standartlarına uyğundur.

**İstifadə sahələri**

Bu aralıq doldurma qarışığından:

• daxili məkanlarda gips-karton lövhələrin (alçipan) birləşmə aralıqlarının doldurulmasında;

• gips əsaslı lövhə və plitələrin yapışdırılmasında;

• səthlərdəki çatların və qopuqların doldurulmasında istifadə olunur.

**Üstünlükləri**

• tərkibindəki xüsusi kimyəvi qatqılar gips-karton lövhələr və digər gips əsaslı səthlər tərəfindən suyun vaxtından əvvəl sorulmasının qarşısını almaqla elastiklik yaradır;

• səthdə büzülmələr və çatlar yaratmır;

• yüksək səviyyədə istiliyi və səsi izolyasiya edir;

• aralıqların doldurulmasında yanğına davamlı lent və liflərdən istifadə edildiyindən aralıq doldurma qarışığının müqaviməti və yanğına dözümlülüyü daha da artır;

• rahat çəkildiyi üçün ustanı yormur;

• solmaya qarşı davamlıdır, elastikdir;

• hamar və parlaq səth yaradır.

**İstifadə qaydaları**

***Səthin hazırlanması.*** İstifadə olunan səthlərin aralıqlarının sağlam, quru, təmiz və ölçülərinin düzgün olmasına diqqət etməli, səth yapışma müqavimətini zəiflədən hər növ yağ, parafin və digər qalıqlardan tamamilə təmizlənməlidir.

***Qarışığın hazırlanması.*** 10 kq quru qarışığı ehmalca 6,0 – 6,5 litr suyun üzərinə səpib 3 dəqiqə gözlədikdən sonra kürəciklər yox olana qədər (homogen qarışıq alınana qədər) qarışdırın. Qarışdırmaq üçün zəif dövriyyəli qarışdırıcıdan istifadə olunması məsləhət görülür. İstifadəyə başlamazdan əvvəl qarışığı yenidən qarışdırın.

***Tətbiqi.*** Qarışıq səthə iki mərhələdə tətbiq olunur. I mərhələdə hazır qarışıq gips lövhələrin birləşmə aralıqlarına tətbiq olunur və dərhal həmin aralığın üzərinə gips lövhə bantı yapışdırılır. II mərhələdə isə hazır AĞDAĞ FugaPlaster qarışığı